AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

QƏRAR

“Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 aprel tarixli 370 nömrəli Fərmanının qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, “Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 aprel tarixli 370 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 24 aprel tarixli 69 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 286 (Cild I) ilə təsdiq edilmiş “Birgə bazalı aerodromların dövlət qeydiyyatına alınması Qaydası”nın 2.1.7-ci yarımbəndində “dövlət və (və ya) eksperimental aviasiya” sözləri “mülki eksperimental, dövlət və dövlət eksperimental aviasiyasına aid” sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 22 aprel tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (II kitab), maddə 411) ilə təsdiq edilmiş “Aviasiyanın ətraf mühitə təsirinin azaldılması Qaydası”nın 3.1-ci bəndində “Qanunun 12.3-cü maddəsinin birinci cümləsinə uyğun olaraq aparılmalıdır” sözləri “Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə razılaşdırılmaqla “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada həyata keçirilir” sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 23 aprel tarixli 132 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025, № 4 (II kitab), maddə 420) ilə təsdiq edilmiş “Mülki pilotsuz uçuş aparatlarının istismarı,

qeydiyyata alınması və kateqoriyalara bölünməsi Qaydaları”nda aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.3-cü bəndə “Nazirliyinin” sözündən sonra “(bundan sonra – Nazirlik)” sözləri əlavə edilsin;

3.2. 1.4-cü bənddə və 9.4.1-ci yarımbənddə “elektron portal” sözləri “Nazirliyin elektron portalı” sözləri ilə əvəz edilsin.

Əli Əsədov
Azərbaycan Respublikasının Baş naziri

Bakı şəhəri, “ 2 ” “ dekabr ” 2025-ci il

№ 366